# HİDAYƏT-80



Hörmətli Hidayət müəllim!

Bu il sentyabrın 5-də sizin - görkəmli şair, dramaturq, nasir, publisist, ictimai xadim Hidayət Xuduş oğlu Orucovun 80 yaşı tamam olur.

Kitablarınız iyirmidən çox xarici dilə tərcümə olunaraq nəşr edilmişdir. Dram əsərləriniz Milli Akademik Dram Teatrında, S.Vurğun adına Akademik Rus Dram Teatrında, C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında, Gənc Tamaşaçılar Teatrında, ölkəmizin digər Dövlət teatrlarında, Ankara Bələdiyyə Teatrında, Ç.Aytmatov adına Qırğızıstan Rus Akademik Dram Teatrında və bir çox başqa peşəkar kollektivlərdə uğurla tamaşaya qoyulmuşdur.

Oxucuların maraqla qarşıladıqları poeziyanızın, nəsrinizin və publisistikanızın əsas mövzuları Sovetlər Birliyi həqiqətlərinin qlobal təzadları və yaşadığımız günlərin gerçəkləridir. Ədəbiyyatın, incəsənətin, ümumiyyətlə, mədəniyyətin müxtəlif sahələrindən, milli siyasət, milli-mədəni dəyərlərimizdən bəhs edən 150-dən çox publisist araşdırmaların, esselərin müəllifisiniz.

Bədii tərcümə sahəsində fəaliyyətiniz də diqqətəlayiqdir. Bir sıra dünya klassiklərinin əsərlərini məharətlə dilimizə çevirmisiniz: V.Şekspirin "Sonu yaxşı olan hər iş yaxşıdır" dramını, böyük Amerika nasiri Harriet Biçer-Stounun "Tom dayının daxması" romanını, XIX əsr ingilis və island poeziyasından seçmələri, "Gözəllik suyu" adlı türk ədəbiyyatı antologiyasını xatırlamaq yetərlidir.

Gənclik illərinizdə Qərbi Azərbaycanda fəaliyyət göstərərək, "Sovet Ermənistanı" qəzetinin əməkdaşı, sonrakı illərdə C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru, Ermənistan Yazıçılar İttifaqı İdarə Heyətinin üzvü və Azərbaycan Ədəbiyyatı Şurasının sədri olaraq bədnam respublikada milli ədəbiyyatımızın, mədəniyyətimizin inkişafında əvəzsiz xidmətlər göstərmisiniz.

Həmin dövrdə, 1970-ci ildə - 26 yaşında ikən SSRİ-nin "Əmək rəşadətinə görə" medalı, 1978-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmisiniz. Həmin il sizə Ermənistan SSR Əməkdar mədəniyyət xadimi adı verilmişdir. 1988-ci ildə qonşumuzun ölkəmizə təcavüzü başlayanda həmin fəxri addan rəsmən imtina etmisiniz. 1991-ci ildən Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimisiniz.

2004-cü ildə Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinizə görə "Şöhrət" ordeni ilə təltif edilmisiniz. 2014-cü ildə Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu, 2019-cu ildə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmusunuz.

2002-ci ildə Gürcüstan Prezidenti Eduard Şevernadzenin sərəncamı ilə Gürcüstan və Azərbaycan arasında qarşılıqlı ədəbi-mədəni əlaqələrin möhkəmlənməsində mühüm xidmətinizə görə "Şərəf" ordeni ilə təltif olunmusunuz. Həmin il Dağıstan Respublikası Dövlət Şurasının Sədri (Prezident statusunda) Məhəmmədəli Məhəmmədovun Fərmanı ilə Dağıstan Respublikasının Fəxri Fərmanı, 2021-ci ildə Qırğız Respublikası Nazirlər Kabinetinin sədri Asılbek Cəfərovun Sərəncamı ilə QR Hökumətinin Fəxri Fərmanı ilə mükafatlandırılmısınız. 2003-cü il Patriarx Aleksinin Sərəncamı ilə Rus Pravoslav Kilsəsinin "Müqəddəs Knyaz Moskovski", 2010-cu ildə Patriarx Kirilin Sərəncamı ilə "Şöhrət və Ləyaqət" ordeni ilə təltif edilmisiniz.

Bundan əlavə, Çuvaşstan Respublikasının Paydulla İskeyev adına Çuvaş Beynəlxalq Ədəbi mükafatı, TÜRKSOY-un "Onur" ordeni, "Çingiz Aytmatov: İssık-Göl Forumunun Fəxri Fərmanı" ilə təltif edilmisiniz.

Siz Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvü, Ç.Aytmatov Akademiyasının fəxri üzvüsünüz.

Siz 1992-1993-cü illərdə Azərbaycan Respublikası Prezidentinin millətlərarası münasibətlər üzrə müşaviri, 1993-2005-ci illərdə Dövlət müşaviri, 2006-2012-ci illərdə Dini qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri, 2012-2021-ci illərdə Azərbaycan Respublikasının Qırğız Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifələrində çalışmısınız.

Hörmətli Hidayət müəllim!

Sizi bir daha 80 illik yubileyiniz münasibətilə təbrik edir, möhkəm cansağlığı və yeni-yeni uğurlar diləyirik.

**Azərbaycan Yazıçılar Birliyi**